public council.az

ictimaishura.az

# İCTİMAİ ŞURA
# PUBLIC COUNCIL



“Mən bir daha demək istəyirəm ki, ictimai nəzarət olmasa, biz istəyimizə nail ola bilmərik. İctimai nəzarət nə deməkdir? Vətəndaşlar daha fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq.”

***İlham Əliyev***

Azərbaycan Respublikasının
Prezidenti

№ 02

Fövqəladə Hallar Nazirliyi yanında
İctimai Şuranın fəaliyyəti
2021 - 2023

# Fövqəladə Hallar Nazirliyi yanında İctimai Şuranın  fəaliyyəti

**PUBLICCOUNCIL.AZ**
**ICTIMAISHURA.AZ**

***İnformasiya bülleteni açıq mənbələrdə yayımlanan məlumatlar əsasında hazırlanıb.***

Bakı şəhəri - 2023

## Fövqəladə Hallar Nazirliyi yanında İctimai Şuranın fəaliyyəti 2021- 2023

2021-ci ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-İVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarına əsasən, Nazirlik yanında İctimai Şura yaradıb.



İctimai Şuraya vətəndaş cəmiyyəti institutlarının seçkidə iştirak barədə müraciətləri 26 fevral 2021-ci ilin tarixindən 03 aprel 2021-ci il tarixinədək qəbul edilib.

10 mart 2021-ci il tarixində Nazirlikdə İctimai şuranın seçki komissiyasının növbəti iclası keçirilib.
Nazirliyin inzibati binasında keçirilmiş iclasa komissiyanın sədri, Fövqəladə Hallar nazirinin müavini Faiq Tağı-zadə sədrlik edib. Seçki komissiyasının iclasında vətəndaş cəmiyyəti institutları tərəfindən namizədlikləri irəli sürülmüş nümayəndələrin müraciətlərinə baxılıb, onların qeydiyyatı və İctimai şuraya seçkilərə hazırlıqla bağlı digər məsələlər müzakirə olunub.

Seçkilərdə təmsilçilərinin seçici kimi iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutları 04 aprel - 17 aprel 2021-ci il tarixinədək qeydiyyat üçün müraciət ediblər.

27 aprel 2021-ci il tarixində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuraya seçki keçirilib. Tədbirdə Fövqəladə Hallar nazirinin müavini Tapdıq Əmiraslanov iştirak edib.





Vətəndaş cəmiyyəti institutlarından şuraya üzv olmaq üçün 15 nəfərin namizədliyi təsdiq edilib. Seçkidə seçici kimi iştirak etmək üçün vətəndaş cəmiyyəti institutlarından qeydə alınmış 41 təmsilçidən 27 təmsilçi iştirak edib.

Seçkinin yekunu olaraq Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın 15 nəfərdən ibarət tərkibi seçilib.

## Fövqəladə Hallar Nazirliyi yanında İctimai Şuranın tərkibi 2021 – 2023

1. **Hacızadə Fuad Mahmud oğlu -** Beynəlxalq Ekoenergetika Akademiyasının vitse-prezidenti vəzifəsini icra edən, İctimai Şuranın sədri
2. **İsmayılov Mehman Heydər oğlu -** Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri, İctimai Şuranın sədr müavini
3. **Abbasova Vəfa Zahid qızı -** "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin sədr müavini, İctimai Şuranın katibi
4. **Abışova Vüsalə Mahir qızı** -"Azəri-Press Agentliyi" MMC-nin baş direktoru
5. **Cürənov Ramiz Mikayıl oğlu -** "RƏVAN" Gəncliyə Dəstək İctimai Birliyinin sədri
6. **Ədilzadə Ədil Tahir oğlu -** "Yeni Həyat-İqtisadi İnkişaf" İctimai Birliyinin sədri
7. **Fərzəliyev Sahib Abduləli oğlu -** Potensial Sumqayıt Mütəxəssislər Birliyinin sədri
8. **Həbibov Fəxrəddin Həsən oğlu -** Beynəlxalq Akademiyanın Azərbaycan bölməsinin müxbir üzvü
9. **Həsənli Emin Əliyar oğlu -** Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri
10. **Kazımov Aqil Qədim oğlu** - "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyinin idarə heyətinin üzvü
11. **Kəngərli İlkin Tələt oğlu -** "Çevrə" Davamlı İnkişafa Yardım İctimai Birliyində icraçı direktor vəzifəsini icra edən
12. **Qonaqov Rufiz Rəhim oğlu -** Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi İctimai Birliyinin sədri
13. **Mirələmli Pərviz Atamalı oğlu** - Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri
14. **Mərdanov İlham İldırım oğlu -** "Qan Donorları Assosiasiyası" İctimai Birliyinin qan donoru vəzifəsini icra edən
15. **Rəhimli Davud Səid oğlu -** Azərbaycan Respublikası Əlil Təşkilatları İttifaqının prezidenti

## Fövqəladə Hallar Nazirliyinin yanında İctimai şuranın ilk iclası keçirilib

**17 may 2021**

Fövqəladə hallar nazirinin müavini tibb xidməti general-leytenantı Faiq Tağı-zadə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yanında İctimai şuranın üzvləri ilə görüşüb.



Nazir müavini Faiq Tağı-zadə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaş cəmiyyəti institutlarına xüsusi diqqət və qayğısından söz açıb, qeyri-hökumət təşkilatlarının cəmiyyətdə oynadığı rolun əhəmiyyətindən danışıb. Nazir müavini Nazirlik yanında yeni yaradılmış İctimai şuranın fövqəladə halların idarə edilməsi ilə əlaqədar müvafiq rəy və təkliflərinin nəzərə alınacağını bildirib, ictimaiyyətlə səmərəli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə ümidvar olduğunu qeyd edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Sonra Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın ilk iclası öz işinə başlayıb. Təşkilati məsələlər müzakirə edilib, səsvermə keçirilib. İki il fəaliyyət göstərəcək İctimai şuraya Beynəlxalq



Ekoenergetika Akademiyasının vitse-prezidenti vəzifəsini icra edən Fuad Hacızadə sədr, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov sədr müavini, “Azərbaycan Qadınları Respublika Cəmiyyəti” İctimai Birliyinin sədr müavini Vəfa Abbasova isə katib seçilib.



İclasda müxtəlif məsələlər müzakirə edilib, şura üzvləri tərəfindən Fövqəladə Hallar Nazirliyinin ölkə əhalisinin təbii və texnogen hadisələrdən qorunması sahəsində gördüyü işlərdən bəhs edilərək, Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq rəy və təkliflərin təqdim edilməsi, şura üzvlərinin əhalinin fövqəladə hallarla bağlı maarifləndirilməsi istiqamətində FHN-in həyata keçirdiyi tədbirlərdə yaxından iştirakı və digər təkliflər səsləndirilib.

## FHN yanında İctimai şuranın növbəti iclası keçirilib

**05 iyul 2021**

Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın növbəti iclası keçirilib. İclasda İctimai şuranın sədri Fuad Hacızadə, sədr müavini Mehman İsmayılov və şuranın digər üzvləri iştirak ediblər.

İclasda FHN yanında İctimai şuranın Əsasnaməsi, Fəaliyyət Proqramı və Reqlamenti müzakirə olunaraq təsdiq olunub.



Daha sonra İctimai şuranın gələcək fəaliyyət istiqamətləri barədə geniş fikir mübadiləsi aparılıb.

# Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın növbəti iclası keçirilib



**28 dekabr 2021-ci il**

FHN Bakı Regional Mərkəzinin inzibati binasında Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuranın növbəti iclası keçirilib. İlin yekunlarına həsr olunmuş iclasda İctimai şuranın sədri Fuad Hacızadə, sədr müavini Mehman İsmayılov və şuranın digər üzvləri iştirak ediblər.

İclasda, əvvəlcə sədr Fuad Hacızadənin şuranın il ərzində fəaliyyətinə dair hesabatı dinlənilib.

Daha sonra İctimai şura üzvləri 2022-ci ilin fəaliyyət istiqamətləri və təsdiq olunmuş tədbirlər planı barədə geniş fikir mübadiləsi aparıblar.

# FHN yanında İctimai şuranın növbəti iclasında çimərlik mövsümünə hazırlıqla bağlı görülmüş işlər müzakirə olunub



**13 iyun 2022-ci il**

Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətində (Xidmət) çimərlik mövsümünə hazırlıqla əlaqədar FHN yanında İctimai şuranın iclası keçirilib.

İclasın keçirilməsində əsas məqsəd Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin qarşıdan gələn çimərlik mövsümü ilə əlaqədar həyata keçirdiyi aidiyyəti təhlükəsizlik tədbirləri və qarşıda duran vəzifələrin ictimai müzakirəsi olub.

İclasda İctimai şuranın sədri Fuad Hacızadə və şuranın digər üzvləri, FHN Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarə rəisinin müavini Gündüz Həmzəyev, İctimaiyyətlə əlaqə idarəsinin şöbə müdiri Pərviz Cəfərov, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin rəis müavini daxili xidmət polkovniki Seymur Qaraşov və Xidmət əməkdaşları iştirak ediblər.

İclasda Xidmətin nümayəndələri tərəfindən çimərlik mövsümünə hazırlıqla əlaqədar görülmüş işlər barədə geniş məlumat verilib. Bildirilib ki, aprel ayından etibarən sahilboyu ərazilərdə aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə monitorinqlər keçirilib. Monitorinqlər zamanı çimərlik üçün təhlükəsizlik baxımından istifadəyə yararsız və təhlükəli ərazilər müəyyən edilib. Monitorinqlərin nəticəsi olaraq, yerli icra hakimiyyətlərində müvafiq qurumların nümayəndələrinin iştirakı ilə aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması məsələlərinə həsr olunan işçi müşavirələr keçirilib, müvafiq tapşırıqlar verilib.



Bununla yanaşı, Xidmətin nəzarət etdiyi çimərliklərdə, o cümlədən IDEA İctimai Birliyinin təşəbbüsü ilə Bakı şəhərinin Qaradağ, Səbail, Xəzər, Sabunçu və Binəqədi rayonlarında yaradılmış ictimai çimərliklərdə dalğıclar tərəfindən sualtı müayinələr aparılıb və sahil zolağı mövcud yad cisimlərdən (daş, qaya parçaları və s.) təmizlənib. Xidmətin balansında olan xilasetmə texnika və vasitələri, o cümlədən dalğıc-axtarış əməliyyatlarında istifadə olunan avadanlıqların texniki vəziyyəti bir daha nəzərdən keçirilib.

Xidmət tərəfindən çimərlik mövsümünə hazırlıqla bağlı görülən işləri yüksək qiymətləndirən İctimai şura üzvləri sahilboyu ərazilərdə aparılmış monitorinqlər nəticəsində aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq qurumlarla birgə fəaliyyətin əhəmiyyətindən danışıblar.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən iclas zamanı İctimai şura üzvləri məsələ ilə bağlı fikir və təkliflərini bildiriblər. Gələcəkdə çimərlik mövsümü zamanı keçiriləcək monitorinqlərə İctimai şura üzvlərinin cəlb olunması da qərara alınıb.

## FHN yanında İctimai şura təhlükə potensiallı obyektlərdə texniki təhlükəsizlik məsələlərini müzakirə edib

**28 iyun 2022**

28 iyun 2022-ci il tarixində Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyinin fəaliyyəti ilə əlaqədar FHN yanında İctimai şuranın iclası keçirilib.



İclasın keçirilməsində əsas məqsəd Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyinin təhlükə potensiallı obyektlərdə texniki təhlükəsizliyin təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər, o cümlədən yay mövsümü ilə əlaqədar attraksionlarda təhlükəsizliyə nəzarət məsələləri və qarşıda duran vəzifələrin ictimai müzakirəsi olub.

İclasda İctimai şuranın sədri Fuad Hacızadə və şuranın digər üzvləri, FHN Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarə rəisinin müavini Gündüz Həmzəyev, İctimaiyyətlə əlaqə idarəsinin əməkdaşı Pərviz Aslanov, Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyinin rəis müavini Piri Quluzadə və Agentliyin əməkdaşları iştirak ediblər.



İclasda çıxış edən Agentliyin rəis müavini təmsil etdiyi qurum tərəfindən ölkə ərazisində təhlükə potensiallı obyektlərdə texniki təhlükəsizliyin təmin olunması istiqamətində 2022-ci ilin ilk 6 ayı ərzində görülmüş işlər və qarşıda duran məsələlər barədə ətraflı

məlumat verib. Qeyd olunub ki, Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Dövlət Agentliyi tərəfindən səlahiyyətlərinə uyğun olaraq 2022-ci ilin ötən dövrü ərzində təhlükə potensiallı obyektlərdə texniki müayinələr keçirilib, müvafiq aktlar tərtib edilib, aşkar olunan nöqsanların aradan qaldırılması üçün qanunvericiliyə uyğun tədbirlər görülüb. Bundan əlavə, müəssisələrin mühəndis-texniki heyətlərinin texniki təhlükəsizlik qaydaları üzrə bilik səviyyəsi yoxlanılıb, müvafiq sertifikatlar verilib.



Xüsusilə, yay mövsümündə insanların daha çox istifadə etdiyi attraksionlarda texniki təhlükəsizlik tələblərinə nəzarət tədbirləri gücləndirilib, qüsurlar aşkar olunmuş obyektlərdə çatışmazlıqların aradan qaldırılması tələb olunub.



Təhlükə potensiallı obyektlərdə texniki təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar Agentlik tərəfindən görülən işləri yüksək qiymətləndirən İctimai şura üzvləri, xüsusilə insanların kütləvi istifadə etdikləri qaldırıcı qurğu (lift, eskalator) və attraksionlarda təhlükəsizliklə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən maarifləndirmə məsələlərinin əhəmiyyətini qeyd ediblər. Bundan əlavə, müvafiq normativ-hüquqi sənədlərin işlənilməsi ilə bağlı görülən tədbirlər də nəzərdən keçirilib.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən iclas zamanı İctimai şura üzvləri obyektlərdə texniki təhlükəsizliyin təmin edilməsi məsələləri ilə bağlı fikir və təkliflərini bildirib.

## FHN yanında İctimai şuranın yanğın təhlükəsizliyi məsələlərinə həsr olunan iclası keçirilib

**15 iyul 2022-ci il**

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin fəaliyyəti ilə əlaqədar FHN yanında İctimai şuranın iclası keçirilib.



İclasın keçirilməsində əsas məqsəd Dövlət Yanğın Nəzarəti Xidmətinin ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi fəaliyyət, o cümlədən yay mövsümü ilə əlaqədar meşə, əkin və biçilmiş taxıl sahələrində baş verə biləcək yanğınlara qarşı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələrin ictimai müzakirəsi olub.

İclasda İctimai şuranın sədri Fuad Hacızadə və şuranın digər üzvləri, FHN Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarə rəisinin müavini Gündüz Həmzəyəv, İctimaiyyətlə əlaqə idarəsinin şöbə müdiri Pərviz Cəfərov, Dövlət Yanğın Nəzarəti Xidmətinin rəis müavini daxili xidmət polkovniki Aqşin Kazımov və Xidmətin əməkdaşları iştirak ediblər.



İclasda çıxış edən Xidmətin rəis müavini A.Kazımov təmsil etdiyi qurum tərəfindən ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən səlahiyyətlərinə uyğun olaraq strateji əhəmiyyət kəsb edən neft-qaz və energetika obyektlərində, ictimai obyektlərdə, nəqliyyat və s. sahələrdə yanğın nəzarəti həyata keçirilib, layihələndirilən, tikintisi həyata keçirilən, istismarda olan bina və qurğuların yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinə riayət olunmasına nəzarət təmin edilib, təhsil və səhiyyə müəssisələrində, ticarət obyektlərində, inzibati, sənaye və istehsalat obyektlərində, aqrar sahədə, yaşayış yerlərində əhali arasında yanğın təhlükəsizliyi mövzusunda geniş maarifləndirmə işi

aparılıb, kənd təsərrüfatı sahəsində, eləcə də meşə sahələrində yanğın təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar regional seminar-müşavirələr və konfranslar təşkil edilib, qanunvericiliyə riayət etməyən və yanğın təhlükəsizliyi tələblərini pozan müəssisələrə qarşı öz səlahiyyətləri çərçivəsində inzibati tədbirlər həyata keçirilib.



Xidmətin fəaliyyətini ümumilikdə müsbət qiymətləndirən İctimai şura üzvləri yanğınların qarşısının alınması istiqamətində aidiyyəti qurumlarla birgə fəaliyyətin əhəmiyyətini qeyd ediblər.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən iclas zamanı İctimai şura üzvləri yanğın təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə bağlı fikir və təkliflərini bildiriblər.

# İctimai Şura üzvü monitorinq keçirib

## 17 İyul 2022

Fövqəladə Hallar Nazirliyi yanında ictimai şuranın üzvü Vəfa Abbasova  Xidmətin Astara şəhəri ərazisində fəaliyyət göstərən sularda xilasetmə məntəqəsinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün, Astara çimərliyində monitorinq keçirib.




**Monitorinq müşahidələri:**

Çimərliyə daxil olarkən üzərində insanların suda təhlükəsizliyi üçün müxtəlif təlimatlar əks olunmuş plakatlar mövcuddur.

Xüsusi geyim forması olan xilasedicilər ərazidə müşahidə aparır və zərurət yarandığı zaman istirahətə gələn şəxslərə müvafiq məlumatlar verir verirlər..

Çimərlik ümumilikdə sahil zolağının 800 metr ərazisini əhatə edir. Əməkdaşlar tərəfindən mövsümdən əvvəl hazırlıq işləri görərkən çimərlik ərazisinə düşən hissədə suyun dibi təmizlənmiş, vətəndaşların üzüb dərinə getməməsi üçün müvafiq qaydada şarlar yerləşdirilmiş, xilasetmə avadanlıqları işlək vəziyyətə gətitilmişdir.
Monitorinq zamanı  qeyd edilən faktlarla əyani olaraq tanış olunub.

## Ictimai Şura üzvləri  müşahidə aparıb

### 02 avqust 2023

Fövqəladə Hallar Nazirliyi yanında ictimai şuranın üzvləri  Nabran qəsəbəsi ərazisində fəaliyyət göstərən “sularda xilasetmə məntəqəsinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün Nabran çimərliyinə səfər edib.



## FHN yanında İctimai şuranın tikintidə təhlükəsizlik məsələlərinə həsr olunan iclası keçirilib

### 20 oktyabr 2022-ci il

Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin fəaliyyəti ilə əlaqədar FHN yanında İctimai şuranın iclası keçirilib. İclasın keçirilməsində əsas məqsəd Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin ölkə ərazisində tikintidə təhlükəsizliyin təmin edilməsi istiqamətində həyata keçirdiyi fəaliyyət, bu istiqamətdə görülən işlər və qarşıda duran vəzifələrin ictimai müzakirəsi olub.



İclasda İctimai şuranın sədri Fuad Hacızadə və şuranın digər üzvləri, FHN Regional mərkəzlərlə işin təşkili, layihələrin idarə edilməsi və təhsil məsələləri üzrə Baş idarəsinin rəis müavini Gündüz Həmzəyəv, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov və Agentliyin əməkdaşları iştirak ediblər.



İclasda çıxış edən Agentliyin rəis müavini E.Əsədov təmsil etdiyi qurum tərəfindən ölkə ərazisində tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən səlahiyyətlərinə uyğun olaraq tikintidə təhlükəsizliyə nəzarətin aparılmasına dair metodik-normativ sənədlərin və tövsiyələrin, tikintiyə dair digər normativ-texniki sənədlərin hazırlanması, layihə təşkilatları tərəfindən hazırlanmış tikinti layihələrinin qüvvədə olan şəhərsalma və tikinti normativ sənədlərinə uyğunluğunun yoxlanılması,

tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq ölkə ərazisində tikinti, bərpa, yenidənqurma və əsaslı təmir



obyektlərində yerinə yetirilən tikinti işlərinin dövlət ekspertizasından keçmiş layihəyə, tikinti norma və qaydalarına uyğun aparılmasına nəzarət, müasir texnologiya və avadanlıqlardan, cihazlardan istifadə edilməklə, tikintidə istifadə olunacaq tikinti materiallarının və konstruksiyaların dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması, müxtəlif təyinatlı bina və qurğularda tam müayinə işlərinin aparılması, tikinti təhlükəsizliyi tələblərini pozan



şəxslərə və tikinti şirkətlərinə qarşı öz səlahiyyətləri çərçivəsində inzibati tədbirlərin tətbiq edilməsi həyata keçirilib.

Agentliyin fəaliyyətini ümumilikdə müsbət qiymətləndirən İctimai şura üzvləri tikintidə təhlükəsizliyin təmin edilməsi istiqamətində aidiyyəti qurumlarla birgə əlaqəli fəaliyyətin əhəmiyyətini qeyd ediblər.

## İctimai Şuranın fəaliyyəti haqqında video materiallar

Fövqəladə Hallar Nazirliyində İctimai şuranın seçki komissiyasının növbəti iclası keçirilib

10 mart 2021

Fövqəladə Hallar Nazirliyi yanında İctimai şuraya seçki keçirilib

27 aprel 2021

Fövqəladə Hallar Nazirliyinin yanında İctimai şuranın ilk iclası keçirilib

17 may 2021

PUBLICCOUNCIL.AZ
ICTIMAISHURA.AZ